**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**




**İNFORMASİYA-BİBLİOQRAFİYA ŞÖBƏSİ**




# AZƏRBAYCANIN FƏXRİ-AZƏRBAYCAN GƏNCLƏRİ

## Biblioqrafik icmal

**BAKI – 2016**



**"XXI əsr gənclərin əsridir. XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub - yaratmaq və inkişaf etdirmək dövrüdür".**

**Ümummilli lider Heydər Əliyev**

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayıb. Çünki, gənclik gələcəyin özü, böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Gənclik gələcəkdir, inkişafdır , tərəqqidir.

Müasir dövrdə də gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Təbii ki, bu uğurların formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. O, həmişə gənclərimizə böyük ümidlər bəsləyərək dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Ulu Öndər gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi.

Heydər Əliyevin 1995-ci ildə Gənclər Forumunun keçirilməsi ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin I və II forumları keçirildi. Heydər Əliyevin gənclərin I və II formlarındakı proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirildi, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyuldu. 1996-cı il fevralın 2-də keçirilən Gənclərin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir".

Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verdi.
I Forumdan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq Heydər Əliyev 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etdi. 20 ildi qeyd etmiyimiz bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə məhz Azərbaycanda qeyd olunub. Azərbaycanda Gənclər günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd

olunmağa başladı. Dünyada yalnız 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si gənclər günü elan edilib.

Azərbaycanın gənclər siyasəti Prezident İlham Əliyevin dövründə də diqqət mərkəzində olub. Gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamı da gənclərə dövlət qayğısının artırılması məqsədinə xidmət edir. Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilmişdir. 2005-2009-cu illərdə gənclər siyasəti üzrə Dövlət Proqramı reallaşdırılmış və bu proqramın 100-dən çox bəndi həyata keçirilmişdir.

Dövlət başçısının fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilmiş, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər ili" elan edilmişdir.

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Belə ki, dövlət orqanlarına 2008-2011-ci illərdə işə qəbul edilənlərin 60 faizdən çoxunu gənclər təşkil etmişdir. Bələdiyyə üzvlərinin 28 faizi - 4303 nəfəri gənclərdir. Onlardan 326 nəfəri bələdiyyə sədridir. 2008-2011-ci illərdə Azərbaycan gənclər təşkilatları 11 beynəlxalq təşkilata üzv qəbul edilib.“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. Bu günədək 1204 azərbaycanlı gənc ölkəmizin ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələri üzrə dünyanın ən qabaqcıl universitetlərinə göndərilmişdir.

Hazırda ölkəmizdə 200-ə yaxın gənclər təşkilatı, 20 dən artıq ali məktəbdə fəaliyyət göstərən tələbə gənclər təşkilatları var. Onların əhatə etdikləri məsələlər də kifayət qədər genişdir: gənclərin vətənpərvər ruhda tərbiyəsi, məlumat-landırılması, işsizliyin azaldılması, gənclərin sağlamlığı, təhsili, fəal vətəndaş mövqeyi, mədəniyyətin geniş kütlələr arasında təbliği və s. məsələlər kifayət qədər aktualdır.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olun-ması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi şərait və təminatların yaradıl-

masını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. 6 aprel 2011-ci il tarixində prezident İlham Əliyev tərəfindən “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı haqqında sərəncam imzalanmışdır. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir. Bununla da Azərbaycanda dövlət gənclər siyasətinin yeni mərhələsi başlanmışdır ki, bu da dövlətin həyata keçirdiyi düşünülmüş, ardıcıl ictimai-sosial islahatlardan əhalinin bütün təbəqələri kimi gənclərin də hərtərəfli yararlanmasına şərait yaradacaqdır.

Uğurla həyata keçirilən dövlət gənclər siyasəti bu gün gənclərin ölkə həyatının bütün sahələrindəki fəallığını daha da artırıb.

Göründüyü kimi, bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açılıb. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişafını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmalıdır. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidi.

Artıq 20 ildir 2 fevral - Azərbaycan gənclər günü ölkəmizdə geniş şəkildə qeyd olunur. Bizim kitabxana gənclər kitabxanası olduğu üçün gənclərlə bağlı qəbul olunan dövlət sənədləri də ilk növbədə kitabxananın saytında (www.ryl.az) yerləşdirilir . Belə sənədlərdən “Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”, “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı” və "Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu”nun tam mətnini kitabxananın saytından oxuya bilərsiniz.

Bu il Gənclər günü münasibətilə keçirilən tədbirdə "Azərbaycanın fəxri - Azərbaycan gəncləri" başlığı altında təşkil olunmuş sərgidə dövlətin gənclər siyasətini əks etdirən kitabların biblioqrafik icmalı:

**1. Azərbaycan gəncliyi Azərbaycanın gələcəyidi**r.-Bakı: Azərbaycan nəşriyyatı, 2003.-144 s.




Kitabda Azərbaycan Respublikasının dövlət müs-təqilliyi bərpa olunduqdan sonra keçən dövr ərzində təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə yüksək nailiyyətlər əldə etmiş və beynəlxalq idman yarışlarında dövlət bayrağını ucaldan uşaq, yeniyetmə və gənclər haqqında məlumatlar əks olunub. Dövlətin gənclərə göstərdiyi qayğı və diqqət nəticəsində Azərbaycan gənclərinin müxtəlif sahələrdə əldə etdiyi bu uğurları qiymətləndirmək, əldə edilən yüksək nailiyyətləri əhalinin bütün təbəqələri arasında təbliğ etmək və gənclərin imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün bundan sonra da geniş stimullar yaratmaq məqsədilə Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən bu kitab hazırlanmışdır. Kitabın redaktoru və ön sözün müəllifi Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevdir. Siz bu kitabla yaxından tanış olsanız gələcəyimiz olan Azərbaycan gənclərinin nə qədər bacarıqlı və istedadlı olduğuna bir daha əmin ola bilərsiniz.




**2. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları** / red. N. Məmmədov [və b.] ; foto: R. Bağırov, O. Aydınoğlu. - Bakı : "Abşeron Nəşr" MMC, 2013. - 224 s.

Əgər bu gün söhbət gənclərdən gedirsə biz birinci növ-bədə canını Vətənə sipər edən gənclərimizdən danışmalıyıq. Sizə təqdim etdiyim bu kitabda Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mərdlik və şücaət göstərərək Azər-baycanın Milli Qəhrəmanı adına layiq görülmüş 193 şəhid Milli Qəhrəman ailələri və 18 sağ Milli Qəhrəmanlarla Ümimmilli Liderimiz Heydər Əliyevin görüşlərindən, onlara göstərilən diqqət və qayğıdan bəhs edilir. Bu kitabı oxumaq və qəhrəmanlarımızın keçdiyi şərəfli həyat yolundan ibrət götürmək hər bir Azərbaycan vətəndaşının borcudur.

**3. Əliyev, Rza Fərəc oğlu**. Susmayan qeyrətimiz (Azəri Aslanı) : oçerk

/ R.F.Əliyev; rus dilinə tərc. N. Məhərrəmzadə ; ing. dilinə tərc. S. Gültən. - Bakı : Mütərcim, 2011. - 124 s. - Azərbaycan, rus və ingilis dillərində.

Bu kitab Biləsuvar rayonundan hərbi xidmətə gedib Tərtər rayonunun "N" saylı hərbi hissəsində xidmətdə olan əfsanəvi qəhrəman Mübariz İbrahimovun ömür yoluna həsr olunub. Kitabda XXI əsrin əfsanəvi qəhrəmanı Mübariz

İbrahimovun iyunun 18-dən 19-na keçən gecə Talış- Borsunlu istiqamətində Ermənistan silahlı qüvvələrinin hücumunu dəf edərkən düşmən tərəfə keçərək təkbətək döyüşdə onlaraı  ağır itkilərə məruz qoyaraq qəhrəmancasına həlak olmasından, xalqımızın igid oğluna olan sonsuz ehtiram və sevgisindən danışılır.




**4. Heydər Əliyev və Müstəqil Azərbaycan Gəncliyi** / tərt.: Z. N. Adıgözəlov,
İ. Ə. Mustafayev ; red. M. Q. Qurbanlı. - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2003. - 368 s.

Gənclər tərəfindən hazırlanmış bu topluda Heydər Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğı, müxtəlif sahələrdə dahi siyasətçinin apar-dığı uğurlu daxili və xarici siyasət öz əksini tapmışdır. Dörd fəsldən ibarət olan kitab "Müstəqilliyə aparan yolda atılan mühüm addımlar" fəsli ilə başlayır. Bu fəsldə Heydər Əliyevin 1969-1987- ci illərdə həyata keçirdiyi uğurlu fəaliyyətindən bəhs olunur.

Kitabın "Azərbaycanda aparılan uğurlu siyasət beynəlxalq aləmdə onun nüfuzunu yüksəldir" adlanan ikinci  fəslində müstəqillik illərində Heydər Əliyevin həyatın bütün sahələrində gördüyü işlərə və xalq üçün yaratdığı şəraitə həsr edilib.

Kitabın III fəsli "Heydər Əliyev məktəbinin  ən layiqli davamçısı" adlanır və cənab İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi qayğı, AŞPA-dakı uğurlu fəaliyyəti, həmçinin onun rəhbərliyi ilə milli olimpiya hərəkatının geniş vüsət almasından bəhs olunur.

" Heydər Əliyevin gənclərlə bağlı etdiyi çıxışlar, verdiyi fərman və sərən-camlar" fəsli kitabın sonuncu fəslidir. Bu fəsldə Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanda yaranan və fəaliyyət göstərən gənclər təşkilatlarının siyahısı dərc edilmişdir. Kitabın ön sözünün müəllifi keçmiş millət vəkili Siyavuş Novruzovdur.

**5. Azərbaycanın gələcəyi etibarlı əllərdədir** / Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. - Bakı : Azərnəşr, 1999. - 152 s.

Kitabda görkəmli ictimai-siyasi xadim, dünya miqyaslı siyasətçi, böyük tarixi şəxsiyyət Heydər Əliyev cənablarının gənclərimiz və idmançılarımız, eləcə də yeniyetmə və uşaqlarla bağlı keçirilmiş bəzi tədbirlərdə etdiyi çıxış və nitqləri, gənclərin və idmanın müxtəlif məsələləri ilə əlaqədar imzaladığı fərman və sərəncamlar, bəzi tarixi anları əks etdirən foto şəkillər toplanmışdır.




**6. Yeniyetməlik dövrünün yol xəritəsi.**-Bakı: Xəzər nəşriyyatı, 2009.-126 s.

Gənclik həyatın baharı...Gözün işıqlı, dizin təpərli, biləyin bükülməz vaxtı... Ruhun coşduğu, qanın damarlarda qaynadığı vaxt.

Yeniyetməlik dövrü şəxsiyyətin formalaşdığı illərdir. Hər şeyi tanımağa başlayan, dərk etməyə çalışan, bəzən hissinin əsiri, bəzən məntiqinin hakimi, bəzən də düşüncəsinin məhkumu olan yeniyetmə diqqət və qayğıya , istiqamətləndirməyə, başa düşməyə möhtacdır və bu faktorlar onun onun formalaşmasında mühüm rol oynayır. Məhz bu zaman ona əl uzadan, yiyə duran olsa və bu əl xeyirxahdırsa, o, bütün insani keyfiyyətlərə malik ağıllı, savadlı gənc kimi yetişər! Xalqına, ölkəsinə faydalı vətəndaş kimi müstəqil həyata atılar.

Sizə təqdim etdiyim bu kitab gəncliyin üzləşdiyi problemlərin həllinə kömək, bu sahədə olan boşluqları doldurmaq məqsədilə yazılan bir əsərdir və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**İcmalı hazırladı: İnformasiya-biblioqrafiya şöbəsinin böyük kitabxanaçısı Məmmədova Tamella**

**02.02.2016**